# Sabir, yetmiş beş də belə getdi, vecinə alma...



*Sabir Rüstəmxanlını 1964-cü ildən tanıyıram - bir igidin ömrü qədər. Biz elə universitetin ilk günlərindən qaynayıb-qarışmağa başladıq. Və bu ünsiyyətin meydana gəlməsində hər ikimizin kənd uşağı olmağımızın böyük rolu vardı. Kiçik kəndlərimizdən fərqli olaraq, böyük şəhərin qəribliyi və mürəkkəbliyi bizi daha da yaxınlaşdırırdı. O vaxt ömrümüz universitetdə "Lenin tərbiyəsi" uğrunda qəzetin nəzdindəki və "Sabir" və "Lenin" adına kitabxanalardakı dərnəklərdə keçirdi. Biz yavaş-yavaş çap olunmağa, tanınmağa başlayırdıq. Elə bil dünən olub. Sabir bizim ədəbi nəsildə zəhmətdən qorxmayan, hamımızdan bir baş yuxarı son dərəcə fərasətli bir oğlan idi. Təsadüfi deyil ki, o, fəhlə işlədiyi nazirlikdə uzun illərdən sonra nazir oldu. Bu bizim ədəbi nəsildə nazir işləmiş yeganə nümayəndəmizdi. Və bir də təsadüfi deyil ki, o, otuz ilə yaxın Milli Məclisin deputatıdır. Bu da bizim ədəbi nəsildə bir ilkdir.*

*Mən bu bacarıqlı oğlanı - şair, publisist, nasir qardaşımızı yetmiş beş yaşı münasibətilə bağrıma basıram, təbrik eliyirəm:*

*- Sabir, yetmiş beş də belə getdi, vecinə alma.*

***Seyran SƏXAVƏT***